Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

# Milli dövlətçilik tariximizdə böyük Nizami irsinə münasibət - burada da sistemli siyasəti Heydər Əliyev başladıb

## Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Ədəbiyyatda ədalət axtarışlarını, ədaləti tapıb ona qovuşmaq istəklərini, niyyətlərini biz dahi Nizami Gəncəvinin ölməz əsərlərindən, böyük ədəbi irsindən öyənmişik. İctimai, humanitar, fəlsəfi fikrimizin formalaşmasında böyük yeri olan və mədəniyyət tariximizdə çox önəmli rol oynayan dahi mütəfəkkir, şair Nizami Gəncəvinin tükənməz sənət xəzinəsinin əhəmiyyətli yeri danılmazdır.**

Haqqın-ədalətin carçısı olan mütəfəkkirimiz yalnız Azərbaycan, Şərq, türk ədəbiyyatına deyil, bəşər ədəbiyyatına işıq saçır, önəmli təsir göstərir.

Milli dövlətçilik tariximizdə Nizami irsinə münasibət əsasən Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə formalaşıb, inkişaf edib. Məhz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə klassik irsimizə, dahi şairlərimizin, mütəfəkkirlərimizin yaradıcılığına, öyrənilib tədqiq edilməsinə, bu şəxsiyyətlərin yubileylərinin keçirilməsinə, kitablarının, cildliklərinin nəşrinə xüsusi diqqət və qayğı göstərilib. Bütün bu möhtəşəm işlərin başında xalqımızın Ümummilli lideri Heydər Əliyev dayanıb.

### Nizami Gəncəvi irsinin öyrənilməsi və təbliğində Heydər Əliyevin rolu...

Nizamişünasların yazdıqlarından öyrənirik ki, Heydər Əliyevin Nizami Gəncəvi irsinə xüsusi münasibəti və qayğısı olub. Ömrünün böyük hissəsini dövlət işlərinə, böyük siyasətə həsr edən H.Əliyev bununla belə, ədəbiyyata, mədəniyyətə diqqət, qayğı göstərib, böyük ədiblərimizin, dahi şəxsiyyətlərimizin halal haqqını onlara qaytarıb.

"Nizami Gəncəvi irsinin öyrənilməsi və təbliğində Ümummilli liderimiz Heydər Əliyevin rolu" adlı nəşrdə qeyd edilir ki, böyük Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvi 800 il öyrənilib araşdırılmış deyildir. "Bu fikir cənab Əliyevi narahat etməyə bilməzdi. Nə üçün İran-fars ədəbiyyatçıları Nizamini araşdırır, doğma vətəni Azərbaycanda isə bu iş tamamilə unudulub, arxa plana çəkilmişdir? Buna görə də Nizami Gəncəvinin 840 illik yubileyi ilə əlaqədar olaraq H.Əliyevin uzaqgörən siyasəti nəticəsində 01.01.1979-cu ildə "Azərbaycan KP MK-nin xüsusi qərarı ilə böyük şair və mütəfəkkir Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" fərman verilir. Bu isə Nizami Gəncəvi haqqında işin gücləndirilməsinə təkan verir... Heydər Əliyev bu işlərə daim özü nəzarət və rəhbərlik edərdi".

Bundan iki il sonra Heydər Əliyev 1981-ci ildə Nizami Gəncəvinin doğum gününü nəzərə alaraq, onun 840 illiyi haqqında yeni bir sərəncam imzalayır. "Məhz bunun nəticəsidir ki, Azərbaycanda Nizamini təbliğ edənlərin hamısına imkan yaranır. Dövlət fərman və sərəncamları, müəlliflərə çap imkanı və maddi marağın artması bu sahəyə öz bəhrəsini verir. Onlarla Nizamişünas alim, şair, yazıçı riqqətə gəlib, şair haqqında illərcə yatıb qalan mətləbləri həyata keçirməyə başladılar. Bundan sonra xeyli iş görüldü".

Qeyd edilənə görə, uzaqgörən Heydər Əliyevin şəxsi təşəbbüsü və diqqəti ilə Bakıda metronun "Nizami" stansiyası tikilib. H.Əliyev özü şəxsən bir neçə dəfə oraya gəlmiş, işin gedişi ilə maraqlanmış, metro dayanacağındakı rəsmlərin Nizami əsərlərindən alınan qəhrəmanların və əməkçi insanların olmasına öz tövsiyələrini verib. "Sevindirici haldır ki, şairin doğma yurdu Gəncədə Nizami məqbərəsinin yenidən qurulub, onun adına layiq olması ilə əlaqədar göstəriş vermişdi…"

### "Nizami elə böyük dahidir ki..."

Həmin nəşrdə qeyd edildiyinə görə, H.Əliyev Moskvada işləyərkən təklif edib ki, Nizaminin 840 illiyi qeyd edilsin. Lakin o zaman Kremlin daha yüksək məmurlarının buna etirazı olub. "Hətta onlar Heydər Əliyevə irad tutmağa çalışmışlar ki, 800-850 illik olsa, keçirmək olar. Ancaq Heydər Əliyev isə özünəməxsus soyuqqanlılıqla cavab verir: "Nizami elə böyük dahidir ki, biz onu hər il keçirməliyik". Bu kəlamdan sonra hamı Əliyevlə razılaşır. Buradan belə nəticəyə gəlmək olur ki, başqalarına vaxtında əsl qiyməti verməyi bacar ki, sənə də qiymət verə bilsinlər".

Heydər Əliyevin Nizami irsinə qayğısı bununla bitmirdi. Belə ki, 2002-ci ildə Rusiyanın paytaxtı Moskva şəhərində Nizaminin heykəlinin təntənəli açılışı olur. 2004-cü ildə isə elm mərkəzi sayılan Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin təntənəli açılışı olur.

### Heydər Əliyevin göstərişi ilə AMEA-da xüsusi Nizamişünaslıq şöbəsi yaradılıb

Sözügedən kitabda qeyd edilir ki, H.Əliyev göstərilənlərlə kifayətlənməyib, Nizami irsinin daha yaxşı öyrənilməsi üçün AMEA-da xüsusi Nizamişünaslıq şöbəsi yaratmış, respublikanın görkəmli Nizamişünas alimlərini oraya cəlb etməyə nail olub. H.Əliyev Nizaminin vətəni Gəncə şəhərində olarkən AMEA-nın Gəncə Elmi Mərkəzində də Nizamişünaslıq şöbəsinin açılması təşəbbüsü göstərib.

"Azərbaycan xalqı öz müqəddəratını əlinə aldıqdan sonra əvvəlki nəsillər tərəfindən yaradılmış zəngin klassik mənəvi irsə də yiyələnmiş, öz tarixini dərk və bərpa etmişdir... Orta əsr Şərqinin ən böyük şairləri və mütəfəkkirləri Xaqani, Nizami, Nəsimi, Füzuli qədim Azərbaycan mədəniyyətinin digər korifeyləri, dünya sivilizasiyasını dahiyanə əsərlərlə zənginləşdirən ön şəxsiyyətlər məhz sovet dövründə, xalqımızın mənəvi həyatında vətəndaş hüququ qazanmış, müasir mədəniyyətlə qaynayıb-qarışmışdır". Bu fikirlər də Heydər Əliyevin ədəbi irsimizə verdiyi böyük dəyərin örnəyidir.

Həmin nəşrdə vurğulanır ki, 6 yanvar 1979-cu ildə Azərbaycan KP MK Nizaminin anadan olmasının 850 illik yubileyinin təntənəli keçirilməsi, məqbərəsinin yenidən klassik və muasir memarlığın köhnə və yeni müsbət ənənələrinə uyğun bərpası, hər il sentyabr ayında böyük şairin şərəfinə, adına layiq poeziya günlərinin keçirilməsi, əsərlərinin Azərbaycan və dünya xalqlarının dillərində gözəl, bədii tərtibatla çap edilməsi,



eləcə də "Azərbaycannın maarifpərvər şairi Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsini gücləndirmək haqqında" çıxarılan qərar da, 1982-ci ilin noyabr ayında Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı da Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bağlıdır.

### Qoy ədalət zəfər çalsın!

18 oktyabr 1981-ci ildə Moskvada dərc olunan "Literaturnaya qazeta"da həmin dövrdə Sov. KP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi olan Heydər Əliyevlə müsahibə dərc olunmuşdu. Müsahibəyə dahi Nizaminin "Qoy ədalət zəfər çalsın" fikri başlıq olaraq seçilmişdi. O illərin ən populyar qəzetlərindən birinə çevrilmiş "Literaturnaya qazeta"nın bu nömrəsi əldən-ələ ötürülürdü. Həmin müsahibə bu gün də öz aktuallığını qoruyub saxlayır...

### Prezident İlham Əliyev tərəfindən 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilib

Bildiyimiz kimi, Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Ölkə başçısı qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq bu ili ölkəmizdə "Nizami Gəncəvi İli" elan edib.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.

Qeyd edək ki, 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur.

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

AMEA-nın birinci vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli "Bakı-Xəbər"ə bildirib ki, Azərbaycanda və dünyada kifayət qədər tanınan və böyük şöhrət qazanmış Nizami Gəncəvinin zəngin bədii irsini də müasir dövrdə azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməklə bu görkəmli sənətkarı daha dərindən kəşf etməyə və bütün parlaqlığı ilə tanıtmağa ehtiyac var. "Möhtərəm Prezidentimizin "Nizami İli" haqqındakı mühüm tarixi əhəmiyyətə malik olan Sərəncamı Nizami Gəncəvinin həyatı və yaradıcılığını bütün istiqamətlər üzrə yeni təfəkkür əsasında tədqiq və təhlil etməyə geniş imkan yaradan tarixi sənəd kimi mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Nizami İli" ilə əlaqədar imzaladığı Sərəncam vaxtilə Ümummilli lider Heydər Əliyevin 1979-cu ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında qəbul etdiyi qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmaq, başlanmış mühüm işləri daha geniş miqyasda və əhatəli şəkildə, yaradıcılıqla davam etdirmək üçün də geniş meydan açır".

### "Uzun illərdən sonra nəşri yenidən bərpa edilmiş "Nizamişünaslıq" albomunun ikinci sayı da bu il oxuculara çatdırılacaq"

İ.Həbibbəylinin sözlərinə görə, Nizami Gəncəvinin əsərlərinin dünya dillərinə tərcüməsi, "Xəmsə"nin akademik nəşrinin hazırlanıb çap olunması görkəmli sənətkarın haqqında xarici dillərdə tanıtma kitablarını yazıb nəşr etdirmək baxımından da qarşıda mühüm vəzifələr durur: "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən "Nizamişünaslıq" şöbəsinin əməkdaşları son üç il ərzində üzərində çalışdıqları, ilk mənbələrə, orijinal mətnlərə istinad etmək əsasında yazılmaqda olan "Nizami Gəncəvinin həyatı və yaradıcılığı", "Nizami Gəncəvinin elmi tərcümeyi-halı" mövzularında monoqrafiyaları tamamlayıb ictimaiyyətə təqdim edəcəklər. Bundan başqa, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu ilə birlikdə 2017-2020-ci illərdə həyata keçirdikləri "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyasının da 2021-ci ildə Bakıda və Tbilisidə Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr edilməsi nəzərdə tutulur. Ədəbiyyat İnstitutunun əməkdaşları "Nizami Gəncəvinin görkəmli davamçısı Əmir Xosrov Dəhləvi" adlı monoqrafiya üzərində də tədqiqat işlərini davam etdirirlər. Bundan başqa, uzun illərdən sonra nəşri yenidən bərpa edilmiş "Nizamişünaslıq" albomunun ikinci sayı da bu il oxuculara çatdırılacaq. Eyni zamanda, Ədəbiyyat İnstitutunun əməkdaşlarından Zəhra Allahverdiyeva, Vəfa Hacıyeva və Hacı Siracəddinin Nizami Gəncəvinin həyatı və yaradıcılığının aktual problemlərinə həsr olunmuş doktorluq dissertasiyalarının müzakirəyə çıxarılması da gözlənilən mühüm tədbirlərdən biri ola biləcək" - deyə akademik vurğulayıb.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**